**UOT 331.01; 657**

***Tahir Əli oğlu SADIQOV***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***“Maliyyə və maliyyə institutları”***
***kafedrasının dosenti, i.e.n.***
***tsadiqov59@mail.ru***

# AZƏRBAYCAN RESPUBLİKASINDA RƏQƏMSAL İQTİSADİYYAT ŞƏRAİTİNDƏ VERGİ İNZİBATÇILIĞININ TƏŞKİLİ

***Xülasə***

Tədqiqatda ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində vergi inzibatçılığının imkanları nəzərdən keçirilmişdir. Burada vergi qanunvericiliyi, vergi inzibatçılıq sistemi, vergi orqanlarının vergi ödəyiciləri ilə ünsiyyətinin təşkili proseslərinə münasibətdə iqtisadi təhlükəsizliyin müfəssəl araşdırılmasına həsr olunub. Mövzunun predmeti kimi Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyat şəraitində vergi inzibatçılığının təşkili problemləri təşkil edir.

Məqalədə müasir rəqəmsal iqtisadiyyat şəraitində vergi xidməti ilə vergi ödəyicilərinin qarşılıqlı fəaliyyəti prosesi, vergi inzibatçılığı sisteminin fəaliyyəti və vergi qanunvericiliyinə riayət edilməsi ilə bağlı olan iqtisadi təhlükəsizlik problemləri, eləcə də vergi inzibatçılığı prosesində müasir rəqəmsal texnologiyanın üstün cəhəti və çatışmazlıqları müfəssəl şəkildə araşdırılmışdır.

İnformasiya texnologiyalarının tətbiqi vergi inzibatçılığını konseptual surətdə dəyişir. İqtisadiyyatın rəqəmsallaşdırılması bir tərəfdən yeni potensial imkanlar açmaqla yanaşı, vergi nəzarəti və tənzimlənməsinin ənənəvi sahəsində yeni problemlər yaradır.

**Tədqiqatın məqsədi** – iqtisadiyyatın rəqəmsallaşdırılması dövlət idarəetmə sferasının prioritet sahələrindən olan vergi xidmətində vergi inzibatçılığının mövcud vəziyyətini təhlil etmək və rəqəmsal texnologiyanı tətbiq etməklə onun optimallaşdırılması yollarını müəyyən etməkdir.

**Tədqiqatın metodologiyası** – vergi xidməti strukturlarının fəaliyyətlərinin mövcud vəziyyəti, müasir rəqəmsal texnologiyalar tətbiq etməklə vergi ödəyicilərinə xidmət işinin təşkili, vergi nəzarəti sisteminin formalaşması və vergi inzibatçılığında qabaqcıl innovativ texnologiyaların təhlil edilməsi.

**Tədqiqatın nəticələri** – ölkə iqtisadiyyatının rəqəmsallaşdırılması şəraitində vergi inzibatçılığı haqqında elmi biliklər olmaqla, əsas nəzəri nəticələr ödəyiciləri vergi orqanları ilə qarşılıqlı fəaliyyətə motivikasiya etmək və rəqəmsal vergi mühitini genişləndirməklə büdcəyə vergi ödənişlərinin vaxtında daxil olmasını təmin edəcək vasitə kimi vergi orqanlarının rəqəmsal vergi xidmətlərinin genişləndirilməsinə yönəldilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – ölkə iqtisadiyyatının rəqəmsallaşdırılması şəraitində vergi inzibatçılığının optimallaşdırılması və təkmilləşdirilməsi sferasında nəzəri bilik və praktiki tövsiyələrin verilməsidir.

***Açar sözlər: informasiya texnologiyaları, vergi inzibatçılığı, vergi nəzarəti, vergi sistemi, vergi xərci, vergi riski, rəqəmsal iqtisadiyyat.***

## *Giriş*

Hazırda rəqəmsal texnologiyalardan istifadə olunması iqtisadiyyatın bir çox sahələrinin, o cümlədən nəzarət funksiyasını yerinə yetirən dövlət idarəçiliyinin prioritet vəzifəsidir. Müasir rəqəmsal texnologiyalardan istifadə olunmaqla vergi inzibatçılığının təkmilləşdirilməsi dövlət vergi nəzarətinin effektivliyinin artırılması üçün yeni metodlardan istifadə etmək imkanı verir. Tədqiqat işində ölkəmizdə vergi nəzarətinin inkişaf mərhələləri nəzərdən keçirilmiş, vergi nəzarət formaları təhlil edilərək araşdırılmışdır.

İqtisadiyyatın rəqəmsallaşdırılması yeni potensial imkanlar açmaqla yanaşı, digər tərəfdən vergi tənzimlənməsi və nəzarətinin ənənəvi sahələrində problemlər yaradır. Tədqiqat işində vergi

inzibatçılığı prosesində müasir rəqəmsal texnologiyanın tətbiqinin çatışmayan və üstün cəhətləri araşdırılmış, rəqəmsal iqtisadiyyat şəraitində yaranan vergi risklərinin neqativ təsirinin aşağı salınması üzrə tədbirlər müəyyən edilmişdir. Bundan başqa, vergitutma sferasında yeni informasiya texnologiyalarının tətbiqi üzrə görülmüş tədbirlər təhlil edilmiş, rəqəmsal iqtisadiyyat şəraitində ölkəmizdə vergi inzibatçılığının keyfiyyətinin yaxşılaşdırılması və onun effektivliyinin artırılması perspektivləri müəyyən edilmişdir.

Məqalədə rəqəmsal iqtisadiyyat şəraitində yaranan yeni qaydaların vergi risklərinə mənfi təsirin azaldılması üzrə tədbirlər müəyyənləşdirilmişdir. Bundan başqa, vergi inzibatçılığında müasir rəqəmsal texnologiyanın tətbiqi, vergituma sferasında yeni informasiya texnologiyalarının tətbiqi üzrə tədbirlər təhlil edilmişdir.

Mövzunun aktuallığı indiki rəqəmsal iqtisadiyyat şəraitində vergi inzibatçılığının keyfiyyətinin yaxşılaşdırılması və effektivliyinin yüksəldilməsi perspektivlərinin müəyyən edilməsidir.

**Vergi inzibatçılığı sistemində kompleks rəqəmsal və informasiya texnologiyalarının tətbiqi**

İqtisadi təhlükəsizlik iqtisadiyyatın elə bir vəziyyətidir ki, orada milli maraqların qorunmasına, bütövlükdə ölkə inkişafının sosial istiqamətlərinə, daxili və xarici proseslərin inkişafı şəraitində əlverişsiz şərtlərlə lazımi müdaxilə potensialı zəmanətli təmin olunsun.

İqtisadi təhlükəsizliyin həyati dərəcədə mühüm komponentlərindən biri vergi təhlükəsizliyi sistemidir, çünki büdcə gəlirləri və ölkənin maliyyə resursları məhz vergi daxilolmaları hesabına formalaşır.

Vergi təhlükəsizliyinin təmin edilməsi vergi inzibatçılığı vasitəsilə həyata keçirilən vergilərin idarə olunması prosesi ilə ayrılmaz surətdə bağlıdır. Lakin nəzərə almaq lazımdır ki, vergi inzibatçılığı iqtisadi təhlükəsizliyin təmin olunmasında yalnız mütəmadi və dayanıqlı inkişaf etdiyi halda böyük rol oynayır. Ona görə müasir şəraitdə vergi inzibatçılığının keyfiyyət və effektliyi dövlətin prioritet vəzifələrindən biridir.

Vergi inzibatçılığındakı çatışmazlıqlar büdcə vergi daxilolmalarının kəskin azalmasına, vergi qanun pozuntusu ehtimalının artmasına səbəb olmaqla, büdcələrarası tarazlığı pozur ki, bununla da cəmiyyətdə sosial gərginliyi artırır [5, 152].

Vergi inzibatçılığı mexanizmi vergi orqanlarının qarşılıqlı əlaqəli və qarşılıqlı asılı olan aşağıdakı proseslərin məcmusundan ibarət olan hərəkərləridir:

- vergi ödəyiciləri ilə iş;
- informasiyanın daxil edilməsi və işlənməsi;
- vergi ödəyiciləri və vergitutma obyektlərinin uçotu;
- vergi nəzarəti;
- vergi borclarının tənzimlənməsi;
- operativ iş;
- analitik iş;
- kadrların idarə edilməsi;
- maliyə və maddi-texniki təminat.

Effektiv vergi inzibatçılığı həm dövlət, həm də vergi ödəyicilərinin maraqlarını əks etdirməlidir. Bu məqsədlə onun xidmət və fiskal kimi tərkib hissələri paralel inkişaf etdirilməlidir. Fiskal vergi nəzarətinin təşkili və vergi borclarının məcburi tutulması tədbirləri ilə əlaqədardır. Xidmət isə vergi ödəyiciləri olan hüquqi və fiziki şəxslər üçün müxtəlif xidmətlərin göstərilməsini nəzərdə tutur.

Bu səbəbdən ölkəmizdə ən yaxşı beynəlxalq praktika nümunələrinə yaxın vergi inzibatçılığının inkişafına yönəldilmiş irimiqyaslı islahatlara başlanmışdır.

Vergi inzibatçılığının təkmilləşdirilməsinə yönəldilmiş tədbirlər proqramı vergi nəzarətinin təşkili və aparılması metodikasının inkişafı və yenisinin yaradılması ilə yanaşı, ödəyicilərin vergi orqanları ilə qarşılıqlı fəaliyyətinin nəticələrinin səviyyəsinin artırılmasını təmin etməlidir. Yəni vergi orqanlarının ödəyicilərə xidmətlərin göstərilməsi ilə bağlı qarşılıqlı fəaliyyətinin optimallaş-

dırılmasını vergi inzibatçılığının texniki inkişafı ilə paralel aparmaq lazımdır.

Etiraf etmək lazımdır ki, istər büdcəyə vəsaitlərin yığılması, istərsə də vergilərin ödənilməsi üzrə nəzarət mexanizminin təkmilləşdirilməsi üzrə müəyyən nəticələrin əldə edilməsinə baxmayaraq, hər il ölkəmizin büdcəsinə iri məbləğdə vergi ödənişləri daxil olmur. Bu isə əsasən vergi sferasında hələ də qanun pozuntularının qalması, büdcəyə olan vergi borcları, bəzi təsərrüfat subyektlərinin dövlət tərəfindən nəzarət olunmayan sektora keçmələri ilə əlaqədardır.

Mövcud şərait iqtisadi təhlükəsizlik baxımından ölkəmiz üçün böyük problemdir, çünki iqtisadiyyatın inkişafına böyük təsir edir ki, nəticədə dövlət və cəmiyyət üçün təhlükə yaradır.

Vergi qanunvericiliyinin pozulması ilə mübarizədə hazırda hazırlanması və keçirilməsində arentir-risk yanaşma prinsipinə əsasən həyata keçirilən vergi planlaşdırması və nəzarəti mühüm rol oynayır.

Vergi orqanları həm büdcəyə vergi ödənişlərinin tam daxil olmaması baxımından dövlət, həm də vergi ödəyicisinin fəaliyyətinin iqtisadi-maliyyə riski baxımından ödəyicilər üçün iqtisadi təhlükəsizliyin təmin olunması məqsədilə, vergi hüquq pozuntusunun baş verməsi üzrə ümumi kriteriyalara əsasən vergi ödəyicilərinin maliyyə-təsərrüfat fəaliyyətinin kopleks təhlilinə əsasən açıq və maksimum şəffaf vergi nəzarəti təşkil edir.

Bu zaman risk zonasına ilk növbədə vergi yükü az olan müəssisələr, bir neçə hesabat dövrü ərzində zərərlə işləyən, ƏDV üzrə vergi çıxılmalarının həcmi yuxarı olan, iqtisadi fəaliyyət növü üzrə orta səviyyədən aşağı orta aylıq əməkhaqqı ödəyən vergi ödəyiciləri düşür [3, s. 240]

Hazırda iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədilə vergi inzibatçılığında bir sıra kompleks rəqəmsal və informasiya texnologiyaları tətbiq olunur. Həmin rəqəmsal texnologiya platformalarında həyata keçirilən nəzarət tədbirləri nağdsız hesablaşmalar və nağd pul dövriyyəsi seqmentində dövlətin vergi riskini azaltmaq imkanı verir. Onlar vergi ödəyicilərinin təsərrüfat əməliyyatlarını tam şəffaf edir ki, bu da iqtisadi cinayətlər yolu ilə alınmış gəlirlərin vaxtında leqallaşdırılmasının qarşısını alır və vergi ödəyicilərini qanunsuz vergi sxemlərindən istifadə etməyə məcbur edir. Bu isə vergi daxilolmalarının həcminin əhəmiyyətli dərəcədə artmasına səbəb olur.

Vergi inzibatçılığının xidmət cəhətdən inkişafı, özünü vergi münasibəti iştirakçılarının məsafədən və formal olaraq qarşılıqlı fəaliyyət göstərmək imkanı verən, yeni informasiya texnologiyalarından (internet-servislər, şəxsi kabinetlər) istifadə etməklə, vergi ödəyiciləri ilə vergi orqanlarının ünsiyyətinin radikal dəyişməsi proseslərində göstərir.

Bu işin prioritet istiqaməti dövlət tərəfindən vergi ödəyicilərinə xidmətin göstərilməsi baxımından aydın, əlverişli və iqtisadi cəhətdən əsaslandırılmış vergi inzibatçılığının inkişafı yolu ilə vergi ödəyicilərinə göstərilən xidmətin səviyyəsinin artırılmasına yönəldilmiş işlərin realizə, vergi mədəniyyətinin artırılması və vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinin vicdanlı icra edilməsidir.

Son dövrlər vergi xidməti elektron formada vergi ödəyicisi ilə mübadilə üçün sənədlərin siyahısının genişləndirilməsi üzrə məhsuldar işləyir. Artıq bu gün vergi ödəyicisi onlayn formada aşağıdakı sənədləri ala bilər: səyyar yoxlamanın aparıldığı barədə arayış; sənədlərin tələb olunması barədə tələbnamə; artır ödənilmiş vergi məbləğinin əvəzləşdirilməsi haqqında qərar və s. Vergi ödəyiciləri ilə elektron sənəd mübadiləsinin gündəlik praktikaya tətbiqi informasiyanın toplanmasının keyfiyyət və operativliyini artırır, vergi yoxlamalarının prosedurlarını sürətləndirir, vergi inzibatçılığına müsbət təsir göstərir.

Müasir mərhələdə vergi orqanlarının başlıca vəzifəsi, birmənalı olaraq vergi ödəyiciləri ilə qarşılıqlı fəaliyyətlərini praktiki olaraq tam istisna etərək, bütün əməliyyatların elektron formaya keçirilməsidir. Bu məqsədlə vergi xidmətinin çoxsaylı xüsusi elektron xidmətləri tətbiq olunur ki, bu da vergi ödəyicilərinə vergi orqanlarına gəlmədən özlərinin vergi öhdəliklərinin əsas hissəsini həyata keçirməyə imkan verir.

Belə ki, artıq vergi orqanlarının ödəyicilərlə əlaqələri hüquqi şəxslər və fərdi sahibkarlar üçün “Vergi ödəyicisinin şəxsi kabineti” internet servisdən istifadə və telekommunikasiya rabitə kanalları tətbiq etməklə həyata keçirilir. Hər bir vergi ödəyicisi üçün fərdi elektron ünvan yaradılmış,

elektron imza vasitələri verilmiş və internet-portalında müvafiq servis testi təqdim edilmişdir.

**Vergi inzibatçılığının iqtisadiyyatın rəqəmsallaşdırılması prosesinə transformasiyası**

Hazırda kommunikasiya texnologiyaları sosial sferaya təsir edən əhəmiyyətli amil olmaqla yanaşı, öz növbəsində iqtisadiyyatın inkişafına da təsir edir. İqtisadi inkişafın yeni mərhələsinin müasir aktual istiqamətləri aşağıdakılardır: İnternet şəbəkəsində sürətli inkişaf edən biznes-proseslər, qlobal maliyyə-informasiya mərkəzləri və dünya mobil kommunikasiya rabitə şəbəkəsinin formalaşması. Bütün bunlar iqtisadi proseslərə təsir edir və bu gün beynəlxalq rəqəmsal iqtisadiyyatın formalaşdığını göstərir.

Əsasını yeni informasiya-telekommunikasiya texnologiyalarının tətbiqi təşkil edən "rəqəmsal iqtisadiyyat" termini (digital economy) ilk dəfə Massaçuses Universitetindən olan Amerika alimi Nikolas Neqroponti tərəfindən 1995-ci ildə istifadə olunmuşdur. Dünya praktikasında rəqəmsal iqtisadiyyat internet-platformalar və mobil şəbəkələr vasitəsilə həyata keçirilən sosial-iqtisadi tədbirlərin qlobal şəbəkəsi kimi qəbul edilir.

Rəqəmsal iqtisadiyyat insanların tələbatının daha səriştəli və effektiv təmin edilməsini nəzərdə tutur. Onun daha uğurlu fəaliyyəti üçün isə aşağıdakı tərkib hissələrinin olması labüddür:

1) infrastruktur və ya İnternetə girişin təmin olunması, proqram təminatı və telekommunikasiya;
2) elektron biznes, təsərrüfat fəaliyyətinin kompyuter şəbəkəsi vasitəsilə aparılması;
3) elektron kommersiya,malların İnternet şəbəkəsi vasitəsilə satılması.

Rəqəmsal iqtisadiyyatda infrastruktur və institusional xarakterli lazımi şərtlər informasiya mühitinin yaradılması, texnologiya və platformanın yaradılması, bazar subyektlərinin (malsatanlar, istehlakçılar) sahələrarası qarşılıqlı fəaliyyətinin effektiv təmin edilməsidir.

Yeni növ qeyri-maddi nemətlərə əsaslanan rəqəmsal iqtisadiyyat aşağıdakı əlamətlərlə xarakterizə olunur:

- biznes-proseslərə böyük həcmdə məlumatların daxil edilməsi (Big Date);
- yeni formatlı biznes-modellərdən istifadə olunması;
- gəlir mənbələrinin yaranmasının hüquqi tərəflərinin mürəkkəbliyi.

Yeni tipli iqtisadiyyatın aşağıdakı üstünlükləri vardır:

- iqtisadi proseslərin sadə və şəffaf idarə edildiyi iştirakçılar arasındakı sadə və tez qarşılıqlı əlaqə;
- iqtisadiyyatın olduqca asanlıqla beynəlxalq səviyyədə inkişafı, müxtəlif dövlət proseslərinə problemsiz inteqrasiya etməsi.

Eyni zamanda, iqtisadiyyatın rəqəmsallaşdırılması prosesi keyfiyyətcə yeni formatlı biznes-modellərin yaranması ilə əlaqədar vergi inzibatçılığına yeni yanaşmaların müəyyənləşdirilməsini tələb edir.

İndi isə rəqəmsal texnologiyanı tətbiq etməklə, vergi inzibatçılığının həyata keçirilməsinə münasibətdə rəqəmsal iqtisadiyyatın məzmununu müəyyənləşdirək. İqtisadi inkişafın rəqəmsallaşdırılması həm yeni imkanlar açmaqla yanaşı, vergi inzibatçılığı və vergitutma sferasında yeni problemlər yaradır. Tədqiqat işinin məqsədi vergi inzibatçılığı prosesində tətbiq edilən müasir rəqəmsal texnologiyanın tətbiqindən olan problemlərin müəyyən edilməsi və iqtisadiyyatın yeni rəqəmsallaşdırılması şəraitində onun effektivliyinin artırılması istiqamətlərinin müəyyənləşdirilməsidir.

Vergi inzibatçılığının köməkliyi ilə vergi münasibətləri tənzimlənir, eləcə də vergi inzibatçılığı orqanları ilə vergi ödəyicilərinin qarşılıqlı münasibətləri prosesində yaranan aktual məsələlər həll edilir. İnstitusional nəzəriyyə vergi inzibatçılığını vergi münasibətləri, dövlət siyasəti, müvafiq orqanların səlahiyyətləri, vergi sisteminin nəzarət və tənzimlənməsi mexanizmlərindən formalaşan, çoxcəhətli mürəkkəb institut kimi nəzərdən keçirir.

Rəqəmsal iqtisadiyyat şəraitində yeni informasiya texnologiyalarını (İT) vergi inzibatçılığı prosesinə tətbiq etmək mümkündür ki, bu da onun keyfiyyət və effektivliyini daha da artırmış olur. Rəqəmsal mühitdə vergi orqanları tərəfindən müasir informasiya texnologiyalarının həyata tətbiqi vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinə riayət olunmaması riskini minimallaşdırmaq

və qanunvericiliyə əməletmə göstəricisini 100%-ə çatdırmaq imkanı vermiş olar.

Hazırda vergi inzibatçılığının istənilən prosedurunu vergi orqanlarının gündəlik işində informasiya texnologiyaları tətbiq edilmədən həyata keçirmək mümkün deyil. Artıq Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Dövlət Vergi Xidməti bu sahədə mürəkkəb və iri-miqyaslı layihələrin realizə edilməsində xarici təcrübəyə malikdir. Həm də nəzərə almaq lazımdır ki, vergi inzibatçılığında yeni informasiya texnologiyalarının tətbiqi vergitutma bazasının genişləndirilməsi və vergi yükünü artırmadan büdcə gəlirlərinin artırılması üşün potensialının mövcudluğunu əyani surətdə nümayiş etdirir.

Bəzi müəlliflərin tədqiqatlarında xarici təcrübə nəzərə alınmaqla müasir rəqəmsal texnologiyanın tətbiqinə əsasən vergi inzibatçlığının yeni istiqamətləri və potensial imkanları qeyd edilmiş və əsas diqqət Big Data texnologiyasının, eləcə də smart portal və təbii sistemlərin (Smart Portal Solutions & Natural Systems) tətbiqinə ayrılmışdır. Onların fikrincə, bu texnologiyalar vergi sferasında menecment riskinin effektivliyinin artırılmasına, vergi qanunvericiliyinə riayət edilməsi, vergi ödəyiciləri üçün minimum zəhmət tələb edən, maksimum əlverişli və effektiv olan mühitin yaradılması, eləcə də əməliyyatların şəffaflığına şərait yaratmış olar [5, s. 315].

Müasir informasiya texnologiyalarından istifadə olunması olduqca geniş məsələləri həll etməklə yanaşı, vergi inzibatçılığı piramidasını əsaslı surətdə dəyişmək imkanı verir. Vergi inzibatçılığı proseslərinin avtomatlaşdırılmasının əsas üstünlüklərinə aşağıdakıları aid etmək olar:

- vergi inzibatçılığına çəkilən məsrəflərin azalması;
- vergidən yayınma hallarının aşkar edilməsi sxeminin sürətlənməsi;
- vergi ödəyicilərinə düşən inzibati yükün və baryerlərin azalması (vergilərin bəyanlaşdırılması və ödənilməsi, digər vergi nəzarəti prosesinə sərf olunan əmək və zəhmət məsrəfinin azalması);
- vergi yoxlamalarının icrası zamanı risklərin azalması (nəzarət orqanları ilə vergi ödəyiciləri arasında əlbir olmanın istisna olması, vergi yoxlamasının gedişatı zamanı yol verilə biləcək səhvlərin azalması );
- biznes və vergi inzibatçılığı coğrafiyasının genişlənməsi.

Rəqəmsal iqtisadiyyatın aktiv inkişaf etməsinə baxmayaraq, bir çox ölkələrdə vergi proseslərinə yeni informasiya texnologiyalarının tətbiq edilməsi olduqca zəif gedir ki, bu da vergi inzibatçılığında onların üstünlüklərindən tam həcmdə istifadı olunmasına maneçilik törədir. 2017-ci ildə aparılmış Digital Evolution Index tədqiqatlarının məlumatlarına görə dünya rəqəmsal iqtisadiyyat reytinqinə müvafiq ardıcıllıqla aşağıdakı onluq daxil edilmişdir: Norveç, İsveç, İsveçrə, Almaniya, Finlandiya, Sinqapur, Cənubi Koreya, Honkonq, Böyük Britaniya, ABŞ. Azərbaycanın bu reytinqdə mövqeyi o qədər də qənaətbəxş olmasa da, ekspertlərin fikrincə, ölkəmizdə rəqəmsal iqtisadiyyatın inkişafı pik mərhələsindədir və onun dayanıqlı artımını proqnozlaşdırırlar [6, s.78].

**Rəqəmsal texnologiyanın tətbiqi dövründə vergi inzibatçılığının rəqəmsallaşdırılması sahəsindəki problemlər**

Rəqəmsal texnologiyanın tətbiqi üstünlüklərinə baxmayaraq yeni biznes-modellərin yaranması ilə əlaqədar vergi inzibatçılığı prosesində müəyyən çətinliklər yaranır.

Vergi inzibatçılığının çətinliklərinin müəyyən edilməsi ilə əlaqədar problemlərdən biri rəqəmsal iqtisadiyyat şəraitində yeni beynəlxalq vergitutma obyektlərinin yaranmasıdır. Əksər ölkələrin vergi sistemi rəqəmsal texnologiyanın tətbiqi zamanı kompaniyaların az vergi yükü ilə zəruri rəqəmsal kommersiya fəaliyyəti ilə məşğul olmaq imkanı kimi problemlərlə rastlaşırlar. Beynəlxalq vergitutmada bu problem ilk növbədə, xidmətin alıcısının yerləşdiyi yerin dəqiq müəyyən edimısinin mümkünsüzlüyü ilə əlaqədar “təyinat ölkəsi” prinsipinə əsaslanan ƏDV inzibatçılığındakı mürəkkəbliklə bağlıdır. Məsələn, fərdi devayslardan (telefon, planşet, noutbuk, kompyuter) istifadə edərkən istifadəçilərin və bağlanmış sazişlərin, ödənişin sürətinə təsir edən telekommunikasiya şəbəkələrinin istifadə olunması nəticəsində biznes-funksiyaların mobilliyi ilə əlaqədar istehlakçını müəyyən etmək çox çətindir.

İqtisadiyyatın rəqəmsallaşdırılması şəraitində yeni informasiya texnologiyalarının (müasir devayslar, İnternetə qoşulma, kassa avadanlığı) əldə edilməsinə çəkilən xərclərin artması ilə əlaqədar vergi ödəyiciləri və agentlərində biznesin aparılması üzrə əlavə məsrəflər problemi yaranır. Yuxarıda sadalanan məsrəflərdən başqa, yeni texnologiyanın tətbiqi işçi heyətinin öyrənilməsi, müvafiq lisenziya və mütəxəssislərə malik xüsusi təşkilatlarla müqavilə bağlanması yolu ilə texniki xidmətin göstərilməsini tələb edir ki, bu da əlavə xərclər deməkdir.

Digər problem daimi çıxışı olmayan rayonlarda yerləşən internet-provayderlərilə, eləcə də xüsusi səlahiyyətli kompaniyalarla müqavilə bağlamaq imkanı olmayan subyektlər üçün müasir texnologiyanın əldə edilmə səviyyəsinin aşağı olmasıdır. Bütövlükdə informasiya texnologiyalarının inkişafı (o cümlədən ayrı-ayrı rayonlarda) pulsuz proqram təminatı, servizlər, həmçinin vergitutma sahəsində “pilot layihələri” istənilən vergi ödəyicisinin təcrübədə yeni informasiya-texnologiya sistemi və servislərini tətbiq etmək, həmin sistemin tətbiqinin effektivliyinə əmin və az maliyyə qoyuluşu ilə onun işi ilə tanış olmaq imkanı vermiş olar.

Növbəti mühüm problem vergi inzibatçılığı prosesinə yeni informasiya texnologiyalarının tətbiqi dövlətin vergi və vergi ödəyicilərinin informasiya təhlükəsizliyinə təsir edən amillərdən biri olan vergi riskinin yaranmasına səbəb olur.

Bir çox hallarda vergi risklərinin yaranması vergi qanunvericiliyindəki problemlərdən və ya hüquqi aktların düzgün şərh edilməməsindən irəli gəlir. Nəticədə qanunvericilik birmənalı şərh edilmir ki, burada qeyri-leqal vergi sxemlərindən istifadə olunur və aparılan vergi siyasəti effektsiz olur və son nəticədə vergi daxilolmaları azalır. Bu isə ölkə, eləcə də onun subyektləri üçün vergi təhlükəsizliyinə təhlükə yaradır.

Fikrimizcə, hökumət vergi risklərinin aşağı salınması və dövlətin vergi təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş aşağıdakı məsələlərin həllinə səy göstərməlidir:

- ❖ vergi qanunvericiliyindəki qeyri-müəyyənlik, dəqiqsizlik və ziddiyyətləri ləğv etmək və ya minimallaşdırmaq;
- ❖ qanunvericilik aktlarında ediləcək dəyişikliklərin etibarlı ekspertizasının aparılmasını təmin etmək;
- ❖ vergi qanunvericiliyində gözlənilən transformasiyaların təsərrüfat subyektlərinin fəaliyyətinə və vergi yükünün həcminə təsirinin qiymətləndirilməsi.

Bu gün ölkəmizin vergi qanunvericiliyində qeyri-müəyyənliklər, eləcə də qeyri-dəqiqliklər mövcuddur ki, bu da dövlət və onun subyektləri üçün vergi risklərinin artmasına səbəb olur. Vergilərin müəyyən və vergi qanunvericiliyində dəyişikliklərin edildiyi dövrdə vergi inzibatçıları ilə vergi ödəyiciləri arasında çoxlu fikir ayrılığı və nəticədə yeni vergi yükü yaranır (artır) ki, bu da vergi ödəyicilərinin vergi zərəri və riskinin azalmasına cəhd edilməsi nəticəsində vergi daxilolmalarının həcminin azalması üçün real təklükədir [7, s. 314].

Şərh etdiyimiz vergi təhlükəsizlik tədbirləri nəticəsində dövlətin yeni vergi xərclərinin formalaşması təhlükəsi yaranır, çünki vergi ödəyiciləri yeni vergi öhdəliklərinin yerinə yetirilməsindən yayınmağa çalışacaqlar.

Vergi riskləri mümkün ola biləcək mənfəət və zərəri müəyyən edən ehtimal göstərici olduğu üçün təhlilin aparılması üçün lazım olan metodika və tədbirlər kompleksinin hazırlanması məsələsi olduqca aktuallaşır. Belə ki, yeni şəraitdə riskli məqamlar zamanı vergi münasibəti iştirakçılarının reaksiyalarının proqnozlaşdırılması və qiymətləndirilməsi olduqca əhəmiyyətlidir. Minimallaşdırılmaq məqsədilə vergi risklərinin idarə edilməsi dedikdə, qeyri müəyyənliklərin qısa müddətdə və vaxtında aşkar edilməsi, vergi situasiyalarının qiymətləndirilməsi və təhlil edilməsi, müxtəlif amillərin dövlət və təsərrüfat subyektlərinə aktiv təsirinin azalması və ya qarşısının alınmasına yönəldilmiş tədbirlərin hazırlanması nəzərdə tutulur [8, s.413].

Dövlətin vergi risklərinin azalmasına və vergi inzibatçılığının effektivliyinin artmasına təsir edəcək profilaktik tədbirləri kimi bunları qeyd etmək istərdik:

1. Vahid informasiya işlənməsi mərkəzinin və vergi ödəyiciləri, eləcə də özündə fəaliyyət subyektləri haqqında məlumatları (maliyyə-təsərrüfat və iqtisadi-sosial baxımdan) əks etdirən vergi

orqanlarının informasiya bazasının ümumiləşdirilməsi üzrə işlərin realizə edilməsi və keyfiyyətinin təmin edilməsi. Belə strukturun yaradılması ciddi maliyyə vəsaiti tələb edir və mərhələlərlə həyata keçirilir.

2. Vergi ödəyicilərinin maliyyə savadının və ondan müasir informasiya sistemlərindən istifadə olunmasının lazım olması barədə məlumatlandırılması məqsədilə informasiya tətbiqi üzrə əhali arasında izahat işlərinin aparılması. Bu tədbirlər vergi orqanları ilə qarşılıqlı fəaliyyəti əhəmiyyətli dərəcədə sadələşdirməklə yanaşı, həm vergi orqanları əməkdaşlarının, həm də vergi ödəyicilərinin vaxtına qənaət edilmiş olacaq.

3. İnzibatçılıq prosesində vergi orqanlarının imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmək məqsədilə, məlumatların işlənməsi üzrə yeni texnologiyaların tətbiqi, eləcə də avtomatlaşdırma prinsipinə əsasən onların vahid daxilolma mərkəsində cəmləşdirilməsi.

Vergi inzibatçılığının təkmilləşdirilməsi baxımından sadaladığımız vasitələrin tətbiqi vergi ödəyiciləri ilə qeyri-formal münasibətlərin qaşısını ala və vergi orqanları ilə məsuliyyətli vergi ödəyiciləri arasında qarşılıqlı fəaliyyəti sürətləndirə bilər.

Rəqəmsal iqtisadiyyatın mütəmadi inkişafı və informasiyanın işlənməsi texnologiyasının təkmilləşdirilməsi vergi inzibatçılığı qarşısında daha mürəkkəb vəzifələr qoyur. Hər şeydən əvvəl bu ondan irəli gəlir ki, vergi inzibatçılığı zamanla ayaqlaşmalı və müasir iqtisadiyyatda baş verən informasiya-texnoloji proseslərə uyğunlaşmalıdır [6, s. 310].

Hazırda Azərbaycanda yeni rəqəmsal informasiya texnologiyalarının tətbiqi prosesi mütəmadi olaraq həyata keçirilir ki, bu da vergi inzibatçılığı və nəzarətini keyffiyyətcə yeni səviyyəyə keçirməyə, eləcə də aparılan biznesin şəffaflığını artırmaq və vergi ödəyiciləri üçün qanunvericiliyə riayət olunması az zəhmət, maksimum əlverişli və effektli mühit yaratmaq imkanı verir. Prioritet istiqamət vahid metodoloji-informasiya əsasında inzibatçılıq sisteminin yaradılması, eləcə də vergi inzibatçılığının mərkəzləşdirilmiş proqram təminatına keçirilməsidir. Məhz bu səbəbdən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tədricən yeni informasiya resurslarını tətbiq etməklə bir sıra təşkilati tədbirlər keçirir.

2018-ci ildən pərakəndə ticarət şəbəkəsi məlumatların vergi xidmətinin serverinə onlayn ötürülməsini təmin edən nəzarət-kassa aparatları ilə təmin edilmişdir.

Vergi inzibatçılığına yönəldilmiş risk yanaşması dedikdə, vergi orqanları üçün olan bu və ya digər seqmentdəki bütün bazar iştirakçılarının əməliyyatları üçün şəffaf mühit yaradılması nəzərdə tutulur. Bu zaman vergi orqanları vergi qanun pozuntusunun olması riski xarakterik olan vergi ödəyicilərinə münasibətdə vergi öhdəliyinin könüllü icrasına sövqetmənin müxtəlif formalarını tətbiq edir.

**İqtisadiyyatın rəqəmsallaşdırılması şəraitində vergi inzibatçılığının təkmilləşdirilməsi yolları**

Hazırda vergi uçotu və nəzarətinin beynəlxalq informasiya sistemi hazırlanır. Əksər ölkələr maliyyə hesabatının aparılmasının vahid standartına qoşulurlar ki, bu da vergitutma məqsədləri üçün məlumat mübadiləsinin vahid informasiya sisteminin yaradılması üçün olduqca vacibdir.

Formalaşmış informasiya sistemi vergi inzibatçılığından dövlət büdcəsinə pul vəsaitlərinin toplanmasına şərait yaradacaq vasitə və mexanizmlərin tətbiqini, həmçinin vergidən yayınmanın qarşısını ala biləcək alternativ sistemin yaradılmasını tələb edir.

Vergi xidməti orqanları indiki rəqəmsal iqtisadiyyatın inkişafı şəraitində öz fəaliyyətinin prioritet istiqaməti vergi nəzarətinin gücləndirilməsi və onun rəqəmsal iqtisadiyyat məhsullarından istifadə etməklə yeni texnoloji şəraitə uyğunlaşdırılmasıdır. Hazırda fiskal orqanlar vergi inzibatçılığının mərkəzləşdirilmiş proqram təminatına keçir ki, bu da vergi uçotu və nəzarət vasitələrini təkmilləşdirməklə yanaşı, yeni xidmətlərin inkişafına və kantaktsız xidmət prinsipinə keçmək imkanı vermiş olacaq.

Yaxın gələcəkdə büdcə-vergi siyasətinin əsas istiqamətlərində ölkə iqtisadiyyatı, həmçinin rəqəmsallaşdırma şəraitində vergi inzibatçılığının təkmilləşdirilməsinə şərait yaradacaq aşağıdakı komleks tədbirlər sistemi nəzərdə tutulmuşdur:

- rəqəmsal iqtisadiyyatın hüquqi tənzimlənməsi sisteminin yaradılması;
- əsasən ölkəmizdə işlənib hazırlanmış məlumatların verilməsi, işlənməsi və saxlanması üçün rəqabətqabiliyyətli qlobal infrastrukturun yaradılması;
- rəqəmsal iqtisadiyyat üçün yüksək ixtisaslı kadrların hazırlanmasının təmin edilməsi;
- şəxsin, biznes və dövlətin maraqlarının qorunmasına zəmanət verən məlumatların verilməsi, işlənməsi və saxlanması zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi;
- idarəetmə və dövlət xidmətlərinin göstərilməsi sferasında rəqəmsal texnologiya və əsaslı qərarların tətbiqi;
- iqtisadiyyat və sosial sferanın prioritet sahələrinin dəyişdirilməsi;
- rəqəmsal texnologiya və əsaslı qərarların işlənməsi və tətbiqi üzrə layihələrin kompleks maliyyələşmə sisteminin yaradılması;
- rəqəmsal iqtisadiyyatın inkişafı sahəsində planların realizə edilməsi zamanı AİƏ üzvü olan dövlətlərin siyasəti ilə razılaşdırılmış milli mexanizmin hazırlanması və tətbiqi.

2018-2022-ci illərdə strateji xəritədə vergi qanunvericiliyinin inkişaf istiqamətləri müəyyən edilmişdir. Ən mühüm istiqamətlər kimi aşağıdakıları qeyd etmək olar:

- elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və elektron auditin aparılması metodologiyası ilə bağlı təkliflərin hazırlanması;
- sahibkarlara göstərilən vergi xidmətlərinin yaxşılaşdırılması və əhatə dairəsinin genişləndirilməsi məqsədilə vergi xidmət mərkəzlərinin yaradılmasının davam etdirilməsi;
- internet şəbəkəsində hüquqi və fiziki şəxslərin mədaxil və məxaric əməliyyatları üzrə nəzarətin gücləndirilməsi, eləcə də ehtimal olunan risklərin xəbərdar edilməsi üzrə qayda və standartlar sisteminin tətbiq edilməsi.

Beləliklə, planlaşdırılan dəyişikliklər pul vəsaitlərinin hərəkəti ilə bağlı cəmiyyətin həyat fəaliyyətinin bütün sferasına toxunacaq. Bu dəyişikliklər əhəmiyyətli üstünlüklərə malik olmasına baxmayaraq, mövcud vəziyyəti əhəmiyyətli dərəcədə gərginləşdirə və müəyyən vergi riskləri yarada bilər. Ehtimal olunan problemlərin təhlili ola biləcək riskləri proqnozlaşdırmaq və onların minimallaşdırılması üzrə tədbirlər hazırlamaq imkanı verir ki, bu da sonrakı tədqiqatların aparılması üçün aktual mövzuya çevrilir.

Rəqəmsallaşma, bütün məlumat axınları və informasiya mənbələrinin vahid informasiya mühitinə inteqrasiyası, eləcə də sonradan onların Big Data istifadə etməklə, yeni müasir texnologiyalar tətbiq etməklə böyük həcmdə informasiya massivinin işlənməsi və onların təhlilinin avtomatlaşdırılması,vergi inzibatçılığının texniki təchizatını əhəmiyyətli dərəcədə təmin etmiş olar.

***Nəticə***

Son illər fiskal orqanlar vergi inzibatçılığına aktiv şəkildə rəqəmsal texnologiyalar tətbiq edirlər. Artıq güclü texnoloji baza yaradılmış, elektron xidmətlərin (vergi ödəyicisinin şəxsi kabineti, vergilərin hesablanması üçün vergi kalkulyatoru) əhatəsi genişlənir və inkişaf edir.

Fərəhvericidir ki, respublikamızın vergi inzibatçılığında rəqəmsal texnologiyanın tətbiqi təcrübəsindən artıq xarici ölkələrdə də istifadə olunur. Əlbəttə, rəqəmsal transformasiya parametrlərinin hazırlanması prosesinin mühüm mərhələlərindən biri onun vəzifələrinin vergi inzibatçılığının strateji məqsədlərinə uyğunlaşdırılmasıdır. Həmçinin, imkan daxilində vergi nəzarətinin yeni rəqəmsallaşdırma sisteminə keçməsi ilə əlaqədar biznes xərclərinin aşağı salınmasını nəzərə almaq lazımdır.

Fikrimizcə, dövlətlə vergi ödəyiciləri arasında qarşılıqlı etimadın artması, vergi inzibatçılığı prosedurunun sadələşdirilməsi sayəsində aşağıdakı müsbət nəticələr əldə etmək olar:

- könüllü vergi ödənişlərinin artımı hesabına büdcə gəlirləri artar;
- dürüst pozitiv psixalogiyalı vergi ödəyiciləri formalaşar;
- vergi xidməti orqanları ilə ödəyicilər arasındakı münaqişəli hallar azalar;
- vergi orqanlarında göstərilən xidmətlərin keyfiyyəti yaxşılaşar;

- müasir cəmiyyətdə vergi inzibatçılığının əhəmiyyəti daha da artar.

Beləliklə, vergi inzibatçılığı dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin mühüm alətlərindən biridir. Bu səbəbdən onun inkişafı dövlət, cəmiyyət və təsərrüfat subyektlərinin maraqlar balansına nail olunmasına yönəldilməlidir ki, ölkənin iqtisadi gücü artsın, büdcə maliyyə resursları ilə təmin olunsun, istehsalın rəqabət qabiliyyəti artaraq investisiya-innovasiya səviyyəsində inkişaf etsin.

## ƏDƏBİYYAT


1. “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 2019-cu il üzrə icrasına dair monitorinq və qiymətləndirmə HESABATI.
2. Vergi xəbərləri. 2022.
3. Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar mövzusunda Beynəlxalq konfransın materialları. Bakı: UNEC-2020, 542 səh.
4. Turkey Introduces New Digital Services Tax by Ulrika Lomas, Tax-News.com, Brussels 03 March 2020.
5. Гончаренко, Л.И., Малкова, Ю.В., Адвокатова, А.С. Актуальные проблемы налого-вой системы в условиях цифровой экономики // Экономика. Налоги. Право. 2018. № 2. С. 166–172.
6. Цифровые технологии налогового администрирования: монография с грифом НИИ образования и науки / под ред. И.А.Майбурова, Ю.Б.Иванова. – М.: ЮНИТИ-ДАНА, 2019. – 263 с.
7. Налоги в цифровой экономике. Теория и методология: монография с грифом НИИ образования и науки / под ред. И.А.Майбурова, Ю.Б.Иванова. – М.: ЮНИТИ-ДАНА, 2019. – 279 с.
8. Миронова, О.А. Налоговая безопасность: развитие теории, методологии и прак-тики // Инновационное развитие экономики. 2016. № 3-1. С. 90–97.
9. Петухова, Р.А., Сладкова, Е.В. Совершенствование налогового администрирования с учетом мировой практики применения современных информационных технологий // Инновационное развитие экономики: научно-практический и теоретический журнал. 2017, март-апрель. № 2(38). С. 191–197.
10. Standard for Automatic Exchange of Financial Account Information in Tax Matters.
11. http://www.taxes.gov.az
12. http://sai.gov.az/1/nesr/29internet
13. https://customs.gov.az/az/faydali/budce-daxilolmalari/?year=2019
14. https://www.stat.gov.az/



***Тахир Али оглы Садыгов***
***Азербайджанский Государственный***
***Экономический Университет***
***доцент кафедры «Финансы и финансовые институты»***


**Организация нологового администрирования в Азербайджанской Республике в условиях цифравой экономики**


***Резюме***

В статье рассмотрены актуальные проблемы модернизации налогового контроля и сформированы предложения, направленные на развитие налогового администрирования в условиях цифровизации экономики. Определены риски использования больших данных в налоговой сфере, сделан вывод о необходимости государственного регулирования приме-

нения технологии Big Data. Цель статьи – обоснование ключевых направлений модернизации налогового контроля через применение современных цифровых технологий, а также разработка практических предложений по их реализации.

***Ключевые слова: информационная технология, налоговое администрирование, налоговый контроль, налоговая система, налоговый риск, цифровая экономика.***

***Tahir Ali Sadigov***
***Azerbaijan State Economic University***
***"Finance and financial institutions"***
***associate professor of the department***

**Organization of tax administration in the Republic of Azerbaijan in the digital economy**

***Summary***

The use of information technologies is conceptually changing the paradigm of tax administration. Digitalization of the economy opens up new potential opportunities, on the other hand, creates new problems in the traditional areas of tax regulation and control. The article investigates the advantages and disadvantages of the use of modern digital technologies in tax administration. Measures to reduce the negative impact of tax risks of the new order arising in the digital economy are defined. Measures for the introduction of new information technologies in the field of taxation and the prospects for improving the quality and efficiency of tax administration in the Russian Federation in the digital economy are analyzed.

***Key words: information technology, tax administration, tax control, tax system, tax expense, tax risk, digital economy, Big Data.***